## Dünyanı heyran qoyan lider

***2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında 29 sentyabr 2022-ci il tarixli Prezident sərəncamından sonra "Xalq qəzeti" redaksiyasının Diasporla İş üzrə Dövlət Komitəsi ilə birgə həyata keçirməyə başladığı "Dünyanı heyran qoyan lider" layihəsi ulu öndərin anadan olmasının 100-cü ildönümündə də davam etdirilir.***

***Xatırladırıq ki, layihə çərçivəsində dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev haqqında xarici ölkələrin görkəmli insanlarının, nüfuzlu siyasətçilərinin yaddaş saxlancında yaşayan xatirələrin diaspor qurumu əməkdaşlarının dəstəyi ilə toplanıb oxucularımıza çatdırılması davamlı olaraq gerçəkləşdirilir. Bu sayımızda Komitənin redaksiyamıza göndərdiyi növbəti yazını oxucularımıza təqdim edirik.***

# "Heydər Əliyev Gürcüstanın sadiq dostu idi"

## *Bunu Gürcüstanın Azərbaycandakı keçmiş səfiri Zurab Qumberidze dedi*



**2023-cü il həm Azərbaycan, həm də Gürcüstan üçün əlamətdar bir tarixə təsadüf edir. Belə ki, bu il bizim dost ölkəmiz Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi təntənə ilə qeyd edilir.**

Mənə Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycanda səfir işləmək xoşbəxtliyi nəsib olub. Heydər Əliyev Azərbaycanla Gürcüstan arasında siyasi, iqtisadi məsələlərin həllində daim bizim ölkəyə dəstək olub. Onun necə dahi və təcrübəli siyasətçi, bənzərsiz şəxsiyyət olduğunu iftixarla və yüksək ehtiram hissi ilə danışa bilərəm.

Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanmış öndər kimi əbədi yaşamaqdadır. O, ölkəsinin maraqları naminə bütün problemləri tez bir zaman kəsiyində həll etməyə qadir lider, habelə ünsiyyət zamanı özünün səmimiyyəti və davranışı ilə seçilən şəxsiyyət kimi hamını valeh edirdi.

Mən onun Gürcüstan haqqında çox səmimi sözlərini eşitmişəm. Heydər Əliyev ölkəmizdə sülhün və stabilliyin bərqərar olunmasında daim bizə dəstək olmuşdur. O, Gürcüstanı tarixən Azərbaycanın qonşusu və dost ölkə hesab edirdi.

Yadımdadır, 1988-ci fevral ayının 25-də Eduard Şevardnadzenin 70 illik yubileyinin keçirilməsi nəzərdə tutulurdu. Yubiley ərəfəsində Heydər Əliyevin Gürcüstana səfər edəcəyi barədə söz-söhbət gəzirdi. Tədbirlərin birində cürət edib bununla bağlı onun planlarını öyrənməyə çalışdım. Heydər Əliyev mənə zarafatla dedi: "Mən dostumun yanına gedirəm, bunun heç kimə aidiyyəti yoxdur, ələlxüsus, səfirliyə".

Belə də oldu. Heydər Əliyev kiçik bir nümayəndə heyəti ilə Gürcüstana səfər etdi. E.Şevardnadzenin yubiley tədbirinə qatıldı. Onlar uzun zaman öz keçmiş xatirələri ilə bölüşdülər. Bu hadisə Heydər Əliyevin dostlara və həmkarlarına olan sədaqət və səmimi münasibətinin bariz nümunəsidir.

Bu illərdə prezidentlər Heydər Əliyev, Eduard Şevardnadze və Süleyman Dəmirəl bir çox ortaq iqtisadi problemlərin həllində müstəsna rol oynadılar. Xəzər dənizindən Qara dənizədək qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə həyata keçirilməsində, Azərbaycanın Avropada etibarlı tərəfdaşa və regionun lider dövlətinə çevrilməsində məhz Heydər Əliyevin böyük rolu olmuşdur.

Gürcüstan daim Azərbaycanın ən etibarlı dostu olaraq qalacaq. Heydər Əliyev çətin problemlərin həllində qərar vermək bacarığına malik bir şəxsiyyət, böyük azərbaycanlı olaraq daim yaddaşımda yaşayacaq.

Prezident İlham Əliyev bu gün Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirir. O, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi. Mən deyərdim ki, Prezident İlham Əliyev Heydər Əliyevin yaratdığı dövlətin daha da qüdrətləndirilməsində böyük siyasi rol oynayan rəhbərdir.

Azərbaycan xalqı Heydər Əliyevin 100 illik yubileyini qeyd edir. Şəxsi münasibətdə çox mülayim və sadə olan bu görkəmli şəxsiyyət, həmçinin Gürcüstanla dostluğa böyük önəm verən, sözün əsl mənasında, gürcü xalqına dərin hörmət və ehtiramla yanaşan siyasi xadim idi".

**"Xalq qəzeti"**